# İbtidai pillə müəllimləri üçün test

## Təbiətşünaslıq

Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Test iki hissədən ibarətdir - peşə biliyi və akademik qabiliyyət.

Testin maksimal xalı 53-dür.

Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra cavabı seçin. Test üzərində işlədikdə verilmiş xəritələrdən istifadə edin.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 4 saat verilir.

Uğurlar arzulayırıq!

# Fənn biliyi

(1) **1.** Aşağıdakılardan hansı süni ekosistemdir?

ა) Qoruq;

ბ) Meşə;

გ) Botanika bağı;

დ) Bataqlıq.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **2.** Bitkinin hansı hissəsi ən uzun müddət qeyri-aktiv vəziyyətdə qala bilər?

I – sporlar    II – toxum    III – gövdə yumruları

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Yalnız III;

დ) I və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **3.** İllustrasiyada dirsək oynağını hərəkətə gətirən ikibaşlı (1) və üçbaşlı (2) əzələlər təsvir olunub. Dirsək büküldükdə əzələlər hansı vəziyyətdə olur?




| | 1 | 2 |
|---|---|---|
| ა) | Sıxılır | Boşalır |
| ბ) | Boşalır | Sıxılır |
| გ) | Sıxılır | Sıxılır |
| დ) | Boşalır | Boşalır |


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **4.** İllustrasiyada iki qabda əkilmiş bitkilər göstərilir. Birinci qabdakı bitkilərə böyümə və inkişaf üçün normal şərait yaradılıb, ikinci qabdakı bitkilərə isə yox. İkinci qabdakı bitkilərin inkişafı üçün nəyin əksik olduğunu müəyyənləşdirin.




I – istiliyin    II – işığın    III – suyun

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) I və II;

დ) II və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **5.** Hansı sümük döş qəfəsinə **aid deyil**?

ა) Fəqərə;

ბ) Qabırğa;

გ) Kürək sümüyü;

დ) Döş sümüyü.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **6.** Bəzi bitkilərin yarpaqları nazik mum təbəqəsi ilə örtülmüşdür ki, bu da bitkini qoruyur :

I – patogen mikroorqanizmlərdən

II – zərərli maddələrin daxil olmasından

III – su itkisindən

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

(1) **7.** Meşədəki ot bitkiləri üçün əsasən məhdudlaşdırıcı ekoloji amildir:

ა) İşığın intensivliyi;

ბ) Torpağın tərkibi;

გ) Temperatur;

დ) Su.

(1) **8.** Yalnız məməlilərdə var:

I – diferensial dişlər    II – dörd kameralı ürək    III – yaxşı inkişaf etmiş beyin

ა) Yalnız I;
ბ) Yalnız II;
გ) I və II;
დ) I və III.

(1) **9.** İllüstrasiyada verilən şəkildəyişmiş gövdə ilə baş verir:




I – vegetativ çoxalma

II – əlverişsiz dövrü aşmaq

III – ehtiyat maddələrini toplamaq

ა) Yalnız I və II;

ბ) Yalnız II və III;

გ) Yalnız I və III;

დ) I, II və III.

(1) **10.** İnsan skeleti hansı funksiyanı yerinə yetirir?

I – dayaq funksiyasını

II – bədən formasını müəyyən edir

III – bədənin hərəkətini təmin edir

ა) Yalnız I və II;

ბ) Yalnız II və III;

გ) Yalnız I və III;

დ) I, II və III.

(1) **11.** Bitki fotosintez üçün lazım olan üç əsas resursu hansı orqanlar vasitəsilə qəbul edir: suyu (I), işığı (II) və karbondioksidi (III)?

| | I | II | III |
|---|---|---|---|
| ა) | Kök | Gövdə | Yarpaq |
| ბ) | Kök | Yarpaq | Yarpaq |
| გ) | Gövdə | Yarpaq | Gövdə |
| დ) | Gövdə | Gövdə | Kök |

(1) **12.** Hansı bitkilər sporlardan əmələ gəlir?

I – şam ağacı    II – qıjı    III – mamır

ა) Yalnız I və II;

ბ) Yalnız II və III;

გ) Yalnız I və III;

დ) I, II və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **13.** İllüstrasiyadakı heyvanlar latın hərfləri ilə işarələnib. Hansı latın hərfi ilə işarələnmiş heyvanlar arasında biotik əlaqə neytrallıq və hansılar arasında rəqabət olduğunu təyin edin.




| | Neytrallıq | Rəqabət |
|---|---|---|
| ა) | A və C | A və B |
| ბ) | B və C | A və C |
| გ) | A və E | B və D |
| დ) | C və D | E və D |

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **14.** Məməlilərin və quşların ümumi əlamətidir:

I – istiqanlılıq II – diribaladoğma III – nəsil qayğısı

ა) I və III;

ბ) Yalnız I;

გ) Yalnız II;

დ) Yalnız III.

(1) **15**. Həşəratlarla tozlanan bitkilər üçün hansı çiçəklər xarakterikdir?

I – böyük və parlaq rəngli

II – ətirli, nektar ifraz edən

III – qoxusuz və yaşılımtıl rəngli

ა) I və II;

ბ) Yalnız I;

გ) Yalnız II;

დ) Yalnız III.

(1) **16.** Aşağıdakı heyvanlardan  hərşeyyeyən məməli heyvan hansıdır?

1. Ayı 2. Canavar 3. Köstəbək 4. Dovşan

ა) 1 və 2;

ბ) 1 və 3;

გ) 2 və 3;

დ) 3 və 4.

(1) **17.** Fotosintez zamanı yarpaqda oksigen və karbondioksid konsentrasiyasının dəyişməsinə hansı rəqəmlə işarələnmiş əyrilər uyğun gəlir?




ა) 1 və 3;

ბ) 1 və 4;

გ) 2 və 3;

დ) 2 və 4.


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **18.** Həşəratlar tənəffüs edir:

ა) Ağciyərlə;

ბ) Qəlsəmələrlə;

გ) Traxeyalarla;

დ) Dəri ilə.

(1) **19.** Balinada soyuq mühitdə yaşadığı üçün hansı uyğunlaşmalar inkişaf edib?

ა) Qalın və sıx tüklər;

ბ) Dərialtı qalın piy qatı;

გ) Uzadılmış bədən;

დ) Sürətli üzmək bacarığı.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **20.** Dörd müxtəlif cismin həcmləri və sıxlıqlarını ölçdülər. Ölçmə nəticələri nöqtələr şəklində diaqramda verilmişdir. Ən kiçik kütləyə malik olan cisim hansıdır?




ა) 1

ბ) 2

გ) 3

დ) 4


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **21.** Şəkildə içərisində buz parçaları olan su ilə dolu stəkan otaq pəncərəsinin önünə qoyulmuşdur. Stəkanın divarlarında kənardan su damcıları əmələ gəlib. Buna hansı proses səbəb olub?




ა) Ərimə;

ბ) Buxarlanma;

გ) Kondensasiya;

დ) Stəkanın səthində əmələ gələn deşikdən suyun tökülməsi.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **22.** Məktəbə doğru gedən şagird yolda dəftərini evdə qoyduğunu xatırladı. O, evə qayıtdı və sonra yenə məktəbə doğru getdi. Aşağıdakı qrafiklərdən hansı şagirdin məktəbə gəliş anına qədər t vaxtına görə evdən x məsafəsini göstərə bilər?




I




II

ა) Heç biri;

ბ) Hər ikisi;

გ) Yalnız I;

დ) Yalnız II.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **23.** Yer kürəsi sadalanan qalaktikalardan hansına daxildir?

I. Süd yolu; II. Andromeda qalaktikası; III. Sombrero qalaktikası.

ა) I-yə;

ბ) II-yə;

გ) III-yə;

დ) Sadalananlardan heç birinə.

(1) **24.** Fiziki hadisələr zamanı maddə dəyişməz qalır, kimyəvi hadisələr zamanı isə dəyişir və başqa bir maddə əmələ gəlir.

Aşağıdakı hadisələrdən hansı fiziki və hansı kimyəvi hadisədir?

I – spirtin yanması;

II – spirtin buxarlanması.

ა) I - fizikidir II – kimyəvidir;

ბ) I – kimyəvidir II – fizikidir;

გ) Hər ikisi fizikidir;

დ) Hər ikisi kimyəvidir.

(1) **25.** Otaq temperaturunda A, B və C mayeləri olan sınaq şüşələri buzlu suya salındı. Bu zaman hansı maddə bərkiyəcək?

Bu maddələrin ərimə temperaturları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

| **Maddə** | **Ərimə temperaturu,** ℃ |
|---|---|
| **A** | $+5$ |
| **B** | $-5$ |
| **C** | $-25$ |

ა) Yalnız A;

ბ) Yalnız A və B;

გ) Yalnız B və C;

დ) Hər üçü.

(1) **26.** Distillasiya hansı prosesdir?

ა) Filtrasiya ilə həll olunan və həll olunmayan maddələrin ayrılması;

ბ) Çökdürmə üsulu ilə bir-birində həll olmayan mayelərin ayrılması;

გ) Maye halında olan maddələrin qarışığının qaynatmaq ilə ayrılması;

დ) Çökdürmə üsulu ilə bərk və maye maddələrin ayrılması.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **27.** Tapşırıqda hansı okean xəritəsinin fraqmenti verilmişdir?




ა) Sakit;
ბ) Hind;
გ) Atlantik;
დ) Cənub.

(1) **28.** Sinoptik hansı fotoda göstərilmişdir?


ა)


ბ)


გ)


დ)

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **29.** Xəritə fraqmentinə əsasən, A nöqtəsinin dəniz səviyyəsindən neçə metr hündürlükdə yerləşdiyini hesablayın.




Miqyas 1:10 000

ა) 151
ბ) 153
გ) 154
დ) 156


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **30.** Xəritə fraqmentinə əsasən, hansı mülahizə düzgündür?




Miqyas 1:10 000

ა) 1-ci və 2-ci torpaq sahəsi çayın sağ sahilində yerləşir;

ბ) Meşə quyudan şimalda yerləşir;

გ) Tsivi çayının sol sahili boyunca yarğan var;

დ) Xəritədə qarışıq meşə verilmişdir.


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **31.** Xəritədə dörd müxtəlif gəminin yerləşdiyi yer verilmişdir. Qara dənizə ən qısa marşrutla hansı gəmi daxil ola bilər?




ა) 1
ბ) 2
გ) 3
დ) 4


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **32.** Fotoşəkildə göstərilən heyvan xəritədə verilən yerlərdən hansında yaşayır?



ა) 1
ბ) 2
გ) 3
დ) 4





1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **33.** Güclü zəlzələnin başvermə ehtimalı xəritədə göstərilən yerlərdən hansında ən azdır?




ა) 1
ბ) 2
გ) 3
დ) 4

(1) **34.** Hansı rəsmdə günorta kölgəsi göstərilmişdir?

ა)



ბ)



გ)



დ)



1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **35.** Sxemdə Litosfer hansı latın hərfi ilə qeyd olunub?




ა) A
ბ) B
გ) C
დ) D


[1](#) [2](#) [3](#) [4](#) [5](#) [6](#) [7](#) [8](#) [9](#) [10](#) [11](#) [12](#) [13](#) [14](#) [15](#) [16](#) [17](#) [18](#) [19](#) [20](#) [21](#) [22](#) [23](#) [24](#) [25](#) [26](#)
[27](#) [28](#) [29](#) [30](#) [31](#) [32](#) [33](#) [34](#) [35](#) [36](#) [37](#) [38](#) [39](#) [40](#) [41](#) [42](#) [43](#) [44](#) [45](#)

(1) **36.** Tapşırıqda günəş sisteminin yer kürəsi qrupunun planetlərinin afeliləri (planet orbitində Günəşdən maksimal şəkildə uzaqda yerləşən nöqtə) verilmişdir. Venera planetinin afelisi hansıdır?

ა) 69,82 mln.km.

ბ) 108,94 mln.km.

გ) 159,1 mln.km.

დ) 249,26 mln.km.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **37.** Antropogen landşaft hansı fotoda göstərilmişdir?













1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **38.** Tapşırıqda verilən sxemə əsasən, hansı mülahizə doğrudur?



ა) Cənub qütbündə qütb gündüzüdür;

ბ) Şimal qütbündə qütb gecəsidir;

გ) Yer kürəsində gecə ilə gündüz hər yerdə bərabərdir;

დ) Şimal Tropikində gündüz gecədən daha uzundur.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **39.** Yumurtanı qaynatmaq üçün harada daha çox vaxt lazım gəlir?



ა) Kazbeq zirvəsində

ბ) Comolunqma zirvəsində;

გ) Denali zirvəsində;

დ) Kostyuşko zirvəsində.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

# Akademik qabiliyyət

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

## Oxunmuş mətnin dərk edilməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*
*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi ''basmaqla'' asanlaşdıra bilərsiniz.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

I Təhsildə qeyri-bərabərlik təhsil imkanları, resursları və müvafiq olaraq, nəticələr baxımından müxtəlif qruplar arasında mövcud olan fərqlərə deyilir. Qeyri-bərabərlik iqtisadi, sosial, gender, etnik və ya digər amillərdən asılı olaraq müxtəlif istiqamətlərdə özünü göstərə bilər. Məsələn, aztəminatlı ailələrdən olan uşaqların yüksək keyiffətli məktəblərə, müəllimlərə, texnologiyaya və əlavə təhsil resurslarına əlçatanlığı kimi təhsil imkanları çox vaxt daha az olur. Bu səbəbdən uğur qazanmaqda çətinlik çəkə bilərlər. Həmçinin bəzi mədəniyyətlərdə mühafizəkar gözləntilər və qadınların cəmiyyətdəki rolu ilə bağlı stereotipik inanclar səbəbindən qızların təhsil almaq imkanları məhduddur.

II Təhsildə qeyri-bərabərlik bilavasitə insan kapitalı indeksi ilə əlaqəlidir. Bu indeks ölkə əhalisinin təhsil və sağlamlıq vəziyyətinin keyfiyyətinin qiymətləndirilməsini əks etdirən göstəricidir. Əgər hər hansı bir ölkənin əhalisi keyfiyyətli təhsil və səhiyyə xidmətləri alırsa, onun "insan kapitalı" yüksəkdir. Bu o deməkdir ki, həmin ölkənin vətəndaşları öz imkanlarını reallaşdırmaq üçün yaxşı şəraitə malikdirlər və bu isə müvafiq olaraq ölkə iqtisadiyyatının gücünü müəyyən edir.

III Belə bir inanc mövcuddur ki, kifayət qədər çox çalışsan, bütün məqsədlərinə çatacaqsan. Nailiyyət bacarıqların, motivasiyanın və zəhmətin nəticəsidir. Müvafiq olaraq, sosial mənşəyindən asılı olmamalıdır. Lakin sosial-iqtisadi vəziyyəti aşağı olan ailələrin uşaqları qeyri-bərabər şəraitə görə çox vaxt öz imkanlarını reallaşdıra bilmirlər. Aztəminatlı ailələr çox vaxt övladlarının təhsilinə böyük sərmayə qoya bilmirlər ki, bu da aşağı keyfiyyətli təhsil və nəticədə bu şagirdlərin əmək bazarında imkanlarının aşağı olması ilə nəticələnir. Bu, sosial-iqtisadi cəhətdən həssas qrupları yüksək səviyyəli təhsilə malik olma ehtimalının daha az olduğu pis dövranı qapalı qrupa çevirən qeyri-bərabərsizliyi yaradır.

Suallara keçid: 40 41 42 43 44

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

IV Təhsildə qeyri-bərabərlik məsələsi ilə maraqlanan fransız tədqiqatçısı Sebastian Qudo fərqli aspektə diqqət yetirib. Onun araşdırmasına əsasən, qeyri-bərabərlik erkən yaşlarda başlayır. Sosial mənsubiyyət uşağın dərs zamanı verdiyi töhfəyə, həmçinin uşaqların özlərini və başqalarını necə qiymətləndirməsinə təsir göstərir. Məlum olub ki, aşağı sosial təbəqədən olan ailələrin uşaqları yuxarı sosial təbəqədən olan həmyaşıdlarına nisbətən qrup müzakirələrində daha az iştirak edirlər. Bu vəziyyətin uşaqların dil bacarıqlarının olmaması və özünüifadə edə bilməməsi ilə izah edilməməsi mühümdür Aşağı təbəqədən olan ailələrdə adi olan normalar məktəbdə mövcud olan normalara ziddir. Bu cür ailədən olan uşaqların özünüifadə formaları və mədəni təcrübələri sinifdə daha az dəyərləndirilir.Həmin uşaqlar özlərini başqaları ilə müqayisə edir, fərqliliklər, ev və məktəb arasında mədəni uyğunsuzluqlar və onlara qarşı mənfi gözləntilər aşkar edirlər ki, bu da başqaları tərəfindən mühakimə olunmaq qorxusunu gücləndirir və nəticədə özlərini ifadə etməkdən boyun qaçırırlar.

V Təhsilin erkən mərhələsində yaradılan qeyri-bərabər tədris mühiti təhsil karyerası boyu nailiyyət fərqləri üçün mühüm əsaslardan biridir.

Suallara keçid: 40 41 42 43 44

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **40.** Birinci abzasda verilən misallar təhsildə qeyri bərabərliyin hansı iki səbəbinin illüstrasiyasıdır?

ა) İqtisadi və etnik;

ბ) Etnik və Gender;

გ) İqtisadi və Gender;

დ) Sosial və Etnik.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **41.** Sadalananlardan hansıda təhsildəki qeyri-bərabərlik ilə insan kapitalı indeksi arasındakı əlaqə düzgün təqdim olunmuşdur?

ა) Yüksək gəlirli ölkələrdə birmənalı şəkildə əlçatan təhsil və yüksək insan kapitalı indeksi var;

ბ) Əgər ölkədə yüksək insan kapitalı indeksi varsa, bu o deməkdir ki, bu ölkədə aşağı keyfiyyətli təhsil almış şəxs yoxdur;

გ) Yoxsulluq insanların aşağı keyfiyyətli təhsilini şərtləndirir, lakin bunu keyfiyyətli səhiyyə ilə kompensasiya etmək olar, buna görə də insan kapitalına zərər dəyməyəcək;

დ) Əgər insanlar təhsil alarkən müxtəlif şəraitə malik olsalar, onların imkanları az inkişaf edər və buna uyğun olaraq ölkədə insan kapitalı da zərər görər.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **42.** Mətnin üçüncü abzasında oxuyuruq: ,, Nailiyyət bacarıqların, motivasiyanın və zəhmətin nəticəsidir. Sadalananlardan hansı bu fikri **şübhə altında qoyur** ?

ა) Sistematik olaraq dərs buraxan şagirdlər akademik uğur qazana bilmirlər;

ბ) Ana dili ilə məktəbin tədris dili üst-üstə düşməyən şagirdlərin əksəriyyətinin akademik göstəriciləri yüksək deyil;

გ) Tapşırıqları sistemli şəkildə yerinə yetirmək vərdişi formalaşmayan şagirdlər akademik uğur qazana bilmirlər;

დ) Səbirli olmaq qabiliyyəti adekvat formalaşmayan şagirdlərin əksəriyyəti akademik uğur qazanmır.

Mətnin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **43.** Aşağıdakılardan hansı mətnin dördüncü abzasında təsvir edilən tədqiqatın nəticələrinə əsaslanaraq çıxarılan düzgün nəticədir?

ა) Tədris mühitində öz fərqliliyini dərk etməsi və dəstəyin olmaması uşaqların özünəinamına mənfi təsir göstərir ki, bu da onların imkanlarını reallaşdırmasına mane olur;

ბ) Uşaqların dil səriştəsi və özünüifadə bacarıqlarına əsasən uşaqlar arasındakı təlim fəaliyyətlərinə fərqlər onların cəlb edilməsinə təsir edir, bu da, müvafiq olaraq, təhsilin əlçatanlığı baxımından maneə yaradır;

გ) Sosial siniflərə əsasən uşaqlar arasındakı fərqlər onların müxtəlif mədəni təcrübələri ilə izah olunur ki, bu da qeyri-bərabər təlim mühiti yaradır;

დ) Uşaqların özünüqiymətləndirməsi təlim mühitinə uyğunlaşmaq üçün maneə ola bilməz; qeyri-bərabər təhsil mühiti məktəbdəki bütün uşaqlar üçün eyni normaları yaradır.

Mətinin I səhifəsinə qayıdış
Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **44.** Aşağıdakılardan hansı verilmiş mətnin məqsədi <u>**deyil**</u>?

ა) Bizi təhsildəki qeyri-bərabərliyin müxtəlif səbəbləri ilə tanış etmək;

ბ) Təhsildəki qeyri-bərabərlik və ölkənin iqtisadi gücü arasındakı əlaqənin əhəmiyyətini vurğulamaq;

გ) Bu və ya digər amilin təhsildəki qeyri-bərabərliyə necə və hansı yolla təsir etdiyini izah etmək;

დ) Müasir araşdırmanın nəticələrinə əsasən təhsildəki qeyri-bərabərliyin aradan qaldırılması yollarını müəyyən etmək.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

(9) **45. Analitik yazı**

Tapşırıqda verilən iki bir-birinə zidd müddəa ilə diqqətlə tanış olun. Onlardan birinin lehinə seçim edin. Seçiminizi əsaslandırmaq üçün arqumentlər gətirin və zidd olan müddəanı tənqidi olaraq  qiymətləndirin.

a) Uşaqların müstəqil və yüksək vətəndaş məsuliyyətinə malik şəxs kimi inkişaf etməsi üçün, onlara məktəbdə daha çox azadlıq və avtonomluq verməliyik.

b) Məkətbdə şagirdlərin azadlıq dərəcəsinə sərt şəkildə nəzarət edilməlidir, çünki , o, öz hərəkətlərinin nəticələrini tam dərk etmir və bununla özünə də, başqalarına da ziyan vurur.

*Yazı işi, ən az, 120 sözdən ibarət olmalıdır.*